# Şeirin İntiqam tərəfi



■ **Məhəmməd Turan**




Mənə elə gəlib ki, şair sevgidən doğulur... Sevginin acısı-şirini, şairi bəsləyir, sevindirir, yandırır, gülümsədir, ağrıdır və zamanla püxtələşdirir.

Sonra isə buraxır zamanın söz meydanına.

İntiqam Yaşar kimi şairlərin var olduğunu görəndə sevinirik... Deyirik ki, hələ əsl ŞAİRlər var... Mənə elə gəlir ki, İntiqam Yaşarın şairliyi böyük bir sevgidən doğulub. Onun şeirlərini oxuyanda mənə elə gəlir ki, bu insan, büsbütün bir sevgidir...

*Mən taleyin zərbələrinə tab etdikcə,*
*Sən "həyat gözəldir" deyərsən... yalandan...*
*Deyərsən unutdum, deyərəm unutmadın...*

Şair necə həzin, kövrək məqamlara toxunur... Şair bu bənddə aşiq psixologiyasını gözəl şəkildə vəsf etmişdir... İntiqam Yaşarın qələmi özünəməxsus deyim tərzi ilə hər zaman seçilir...

Məncə, şeirdə canlılıq, reallıq olmalıdır.. İntiqam Yaşarın şeirlərində bədiiliklə reallığın vəhdəti oxucunun zövqünü oxşayır...

*Yuxuma qonaq gəlmişdin,*
*Adını unutduğum qız...*
*Bulaq kimi qaynar olan*
*Gözünü qurutduğum qız...*

Bir qızın göz yaşına səbəb olan şair burada müəyyən qədər peşimanlığını göstərir.. Çünki peşman olmasayd,ı heç o axan göz yaşının mahiyyətini bəlkə də anlamazdı.

*Çək, ya çəkmə, dönməliymiş bir dağa.*
*Qara günü qatmalıymış dümağa.*
*Dərd deyilən düşən kimi torpağa,*
*Boy atarmış, nə tez dizə çıxarmış.*

Şairin şeirlərində qadına hörmət, xüsusi şəkildə verilir;

*Bir qadının gözlərində gizlənəcək qədər də heç*
*Böyümədik,*
*Yazıq bizə...*

Məncə, İntiqam Yaşarın məhəbbət poeziyası ziyadır!

*Payız rəngində görünür*
*Bütün köhnə şəkillərin.*
*Düşünürəm, şəkildə də*
*Üşüyür incə əllərin...*